*Ceyran HÜMMƏTQIZI*



# YAZ YAĞIŞI, İÇİMƏ YAĞ

Yaz yağışı, içimə yağ!
Günlərimi saya-saya,
İllərimi saya-saya,
Həyatın hər gözəlliyin
Doya-doya ömrümə yaz!
Bulud kəssə qabağını,
Külək yaysa sorağını,
Yaş ötsə də,
Səntələsmə! Həzincə yağ!
Tükənməyən həyat eşqin
Ahəstəcə qəlbimə yaz!
Təzada bax,
İslanmaqdan çəkinərək çətirimə bürünürəm,
Ruhuma yağan yağışdan elə bil ki, dincəlirəm.
Cavanlaşmaq, təzələnmək istəyirəm,
Gözəlliyə sarılaraq nəfəs almaq istəyirəm.
Tərk etsə də,
Kölgəsində daldalanmaq istəyirəm.
İçimdəki duyğuları yavaş-yavaş səsləyirəm,
O da gəlir yağış kimi,
Birdən həzin, birdən sərin,
Dirçəlirəm bir quş kimi,
Gah sönürəm ulduz kimi.
Dağıdılmış vərəqləri,
İsladılmış sətirləri,
Qucaram xatirə tək.
Gənclikdə yaz yağışıdır,
Buludları toqquşdurur, rənglərini dəyişdirir,
Gəlir qısa yağır, sonra doyur, doyur,
Dinməzcə də illəri geridə qoyur,
Özü isə, arzuları qovur, qovur...

*20.04.2020*

# MÜRƏKKƏB QABI

Duyğular mürəkkəb qabım,
Bir az sevinc, bir az kədər
Qatışdırıb yaşayıram,
Ürəyimi mürəkkəblə boşaldıram.
Birdən hisslər boğur məni,
Mürəkkəbim dolur-daşır,
Yazmağıma əngəl olur,
Sanki quruyub daş olur.
Bəlkə yoxdur ürəyimdə bir istəyim?
Bəlkə, bunu yazmağa yoxdur hünərim?
Bəlkə də bax, qurtarıbdır mürəkkəbim?
Doldurmağa qalmayıbdır heç həvəsim?
Yox, yox, hisslərimi ələ alsın mürəkkəbim!
Qələmimdən yayılsın xoş sətirlərim!
Qoy çırpınsın ürəklərdə məhəbbətim!

*15.01.2020*

# PAYIZ DÜŞÜNCƏLƏRİ

Payız gəlir, ağacdan yarpaqlar düşür,
Yarpaqlara sarı, qızıl xallar düşür,
Torpaq sanki xəzan olur,
Təbiətin bu halına tab gətirmir durnalar da,
Uçub gedir.
Dönəcəklər yaz gələndə,
Gətirəcək özləri ilə yeni həvəs, yeni nəfəs.
Oturmuşam bir ağacın kötüyündə,
Fikrim sükutun seyrində,
Meşə səssiz, göylər təmiz,
Təbiətin sükutunu pozan nədir?
Mənzərəyə məni valeh edən nədir?
Ayaqaltda xışıldayan yarpaqlarmı?
Yarpaqların altındakı uğultumu?
Torpaq üstə tək-tək gəzən həşəratmı?
Yoxsa... bu sükutun içindəki min duyğumu?
Tənha qalmaq istəyirəm sənsizlikdə,
Fikirlərə dalıb qalmaq istəyirəm səssizlikdə,
Ömrümüzdə payız kimi dolur, solur,
Kimininsə həyatında xəzan olur.
Payız gəlir, təbiətə həzin notla layla çalır,
Yaddaşlarda xatirələr hey... oyanır.
Hisslərimiz dərin notlarda kök salır.
Payız həm də bolluq rəmzi,
Təbiətə don geydirən gözəl dərzi.
Düşüncələr payız kimi rəngarəngdir,
Mənim ruhum bu hisslərlə həm ahəngdir,
Yenilənər fikirlərim yaz gələndə,
Payızdan da qalacaqdır min düşüncə...

Azad Azərbaycan.- 2023- cü il.- 13 oktyabr.- S. 6.- № 33.